***Qardaş Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin beşinci ildönümü qeyd olunmuş və Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə həmkarı Rəcəb Tayyib Ərdoğana məktub göndərərək, dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını qurban verən şəhidlərin əziz xatirəsinə dərin hörmət və ehtiramını bildirmişdir. Ölkəmizin rəhbəri bununla bir daha Türkiyəyə birlik və həmrəylik duyğularını ifadə etmiş, həmin xəyanətin ən yüksək səviyyədə dövləti fədakarlıq, milli vəhdət və güclü iradə hesabına dəf olunduğunu xüsusi vurğulamışdır.***

***Azərbaycan xalqı və dövləti bu xəyanətkar dövlət çevrilişi cəhdini ilk dəqiqələrdən ən qəti şəkildə pisləyərək birmənalı mövqeyini ortaya qoymuşdur. Türkiyə bütün məsələlərdə Azərbaycanı dəstəklədiyi kimi, Azərbaycan da hər zaman Türkiyənin yanındadır.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan – Türkiyə birliyi: könül candan ayrılmaz...

Azərbaycan Prezidentinin Rəcəb Tayyib Ərdoğana məktubu başdan-başa Türkiyə dövlətçiliyinin növbəti sınaqdan mətanətlə çıxması ilə bağlı sevgi dolu sətirlərlə süslənmişdir: "Şübhəsiz, Türkiyə Respublikası bu çətin sınaqdan daha da güclənərək çıxmışdır. Son illər ərzində Sizin müdrik rəhbərliyiniz altında qardaş ölkənizin siyasi, iqtisadi, hərbi və digər sahələrdə əldə etdiyi nailiyyətlər Türkiyə dövlətçiliyi üçün "Demokratiya və Milli Birlik Günü"nün əhəmiyyətini bir daha vurğulayır".

Məlum olduğu kimi, 2016-cı il iyulun 15-də İstanbul və Ankarada baş vermiş dövlət çevrilişinə cəhddə də məqsəd ölkədə mövcud hakimiyyəti devirmək idi. Həmin gün özünü Yurdda Barış Konseyi (Vətəndə Sülh Şurası) adlandıran bir qrup rəsmi internet saytında və TRT-də yayımlanan bildirişdə ordunun dövlət idarəçiliyini ələ aldığını, ölkədə fövqəladə vəziyyət və küçəyəçıxma qadağası tətbiq olunduğunu elan etdi. İlk növbədə, Ankarada Polis Akademiyası partladıldı. Daha sonra İstanbulda Atatürk Hava Limanı, TRT, AKP-nin Ankara qərargahı zəbt olundu. Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisi Hulusi Akar və ordunun komanda heyətinə daxil olan bəzi generallar, eləcə də, Prezidentin baş katibi girov götürüldü. Türkiyə Böyük Millət Məclisi havadan atəşə tutuldu. Küçələrə tanklar çıxarıldı. Ölkənin hava limanları, körpü və magistral yolları nəzarət altına alındı. TRT telekanalı, ardınca da Doğan Media Mərkəzi ələ keçirildi. AKP hökumətinin fəaliyyət imkanları iflic edildi. Çevrilişi gerçəkləşdirmək istəyən hərbçilər Ankaranın Beştepe səmtində yerləşən Cümhurbaşqanlığı Sarayını bombalamağa uğursuz cəhd göstərdilər. Eyni zamanda, Muğlanın Marmaris bölgəsində bir oteldə olan Prezident Rəcəb Tayyib Ərdoğana qarşı sui-qəsd cəhdi də iflasa uğradı.

Belə bir vaxtda cənab Rəcəb Tayyib Ərdoğan xalqının əsl qəhrəman oğlu kimi səsini ucaltdı və mətin iradəsini bir daha nümayiş etdirdi. O, CNN Türkdə "Face Time", vasitəsilə etdiyi müraciətdə xuntaya heç bir imkanın verilməyəcəyini bildirərək, xalqı qətiyyətlə çevrilişə qarşı çıxmağa çağırdı:"Mən hazırda ölkəmin Ali Baş Komandanı olaraq, bunu çox açıq şəkildə deyirəm, qurucusu olduğum partiyanın bütün üzvlərini, milli iradəsi olan cümhurun özünü, xüsusilə şəhərlərdə insanları meydanlara çağırıram. Bu çevrilişi edənlərə layiqli dərsi verəcəyik". Bundan sonra ölkənin bir çox şəhərlərində mitinqlər təşkil edildi. Hərbi çevrilişə cəhdin qarşısını almaq üçün əməliyyatlara başlandı. Əməliyyatlar zamanı 265 nəfər, o cümlədən, qiyama qoşulan 104 hərbçi öldürüldü. Dövlətçilik naminə mücadilədə 161 mülki şəxs şəhid oldu, 1491 nəfər isə yaralandı. Amma qurbanlar bahasına olsa da, dövlətçiliyə sədaqət, yurda məhəbbət, millətə sevgi qalib gəldi. İyulun 16-nın səhərinə kimi ordu və polisin uğurlu əməliyyatları nəticəsində çevriliş cəhdinin qarşısı alındı.

Ardınca İstanbul Bakırköy Respublika Baş Prokurorluğu, Anadolu Respublika Baş Prokurorluğu tərəfindən Türkiyə Cinayət Məcəlləsinin "hökuməti aradan qaldırmaq", "Prezidentə qarşı sui-qəsd", "əhalini üsyana təhrik etmək" və s. digər maddələr əsasında cinayət işləri açıldı. Aparılan araşdırmalar nəticəsində Vətənə xain çıxan müxtəlif rütbəli 8036 hərbçi həbs edildi. Həbs edilənlər yalnız əsgərlər deyildi. Bədnam təhrikə uyanlar arasında professorlar, müəllimlər, idmançılar və digər peşə sahibləri də var idi. Onların sayı gündən-günə artdı. Hadisə ilə əlaqədar 34 general, yüzlərlə hərbçi, hakim, prokuror saxlanıldı. Konstitusiyaya əsasən, ölkədə 3 aylıq fövqəladə vəziyyət elan edildi. Çevrilişin səbəbkarı kimi uzun illərdən bəri ABŞ-da yaşayan din xadimi Fətullah Gülən və tərəfdarları– Fətullahçı Terror Təşkilatının üzvləri göstərilir.

Beləcə, Türkiyədə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə legitim hakimiyyəti hərbi yolla ələ keçirmək cəhdinin qarşısı alındı. Qəhrəman Türkiyə xalqı Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşərək, qəti sözünü dedi. Məhz həmin qəhrəmanlıq örnəyi nəticəsində Türkiyə dövləti təlatümlərdən və tənəzzüldən xilas oldu. Sözügedən qanlı hadisə ilə əlaqədar təsis edilən 15 İyul – Demokratiya və Milli Birlik Günü türk xalqının Vətəninə və dövlətinə bağlılığının təcəssümüdür. Həmin gün cəsur insanlar öz canlarını fəda edərək dövlətin devrilməsinə, ölkədə vətəndaş müharibəsinin başlanmasına imkan vermədilər. Hərbi qiyamçılar xalqın gücü qarşısında aciz qalaraq təslim oldular.

Bir həftə öncə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının vilayət sədrləri ilə birgə keçirilən iclasında çıxışı zamanı dövlətçiliyə xəyanəti sərt ittiham edib. O deyib ki, 15 İyul çevriliş cəhdi FETÖ-nün əli ilə həyata keçirilən, arxasında daha böyük şəbəkənin olduğu tariximizin ən böyük xəyanətlərindən biridir. Məhz dövlət və xalq birliyi ilə bu çevrilişə cəhd edənlərin xain hücumları uğursuzluqla nəticələnib. Türkiyəyə qarşı məlum dairələrin yönləndirdiyi terror hücumları hazırda yenə davam etsə də, qarşısı alınır. Yeni hədəf Türkiyənin iqtisadiyyatı idi ki, o da alınmadı.

Xatırladaq ki, Türkiyədəki bu hərbi çevrilişə cəhd 1962, 1963, 1969 və 1971-ci ildən sonra uğursuzluğa düçar olan 5-ci müdaxilə kimi tarixə düşüb. Türkiyə tarixinin daha əvvəlki dönəmlərində də buna bənzər hadisələr olub. Qürur hissi ilə bildirək ki, hər zaman da Azərbaycan bütün ruhu ilə, duyğu və düşüncəsi ilə Türkiyənin yanında olub və qətiyyətlə sözünü deyib. Hətta XIX əsrdə rus-türk müharibələrində Azərbaycanın sadə əhalisindən olan yüzlərlə gəncin gizlicə sərhədi keçərək türklərə köməyə getməsi ilə bağlı faktlar da məlumdur.

Beşinci ildönümü qeyd olunan dövlət çevrilişinə cəhd Azərbaycanda ciddi narahatlıqla qarşılandı. Prezident İlham Əliyev Türkiyə xalqı və dövlətinin yanında olması ilə bağlı qətiyyətli mövqe nümayiş etdirdi. Eləcə də, bu zaman dövlətimiz qardaş ölkə hökumətinə və xalqına hər cür mənəvi və əməli dəstək göstərdi. Azərbaycan xalqı adından yaralananların müalicəsi üçün 100 min dollar məbləğində vəsait çatdırıldı.

Bu məqamda başqa bir "beşillik" tədbir də yada düşür: 2014-cü ilin aprelində Prezident İlham Əliyevin Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunan sammitdə "Türkiyə nümayəndələri burada yoxdur, ancaq mən buradayam" – deyərək, Ermənistan prezidentinin böhtan dolu çıxışına layiqli cavab verməsini Türkiyə xalqı əsl qardaşlıq nümunəsi kimi unutmur.

Danılmaz həqiqətdir ki, biz də bütün məsələlərdə Türkiyənin güclü dəstəyini hiss edirik. Elə 30 illik Qarabağ münaqişəsi zamanı, həmçinin 44 günlük zəfər yürüşündə Türkiyə hər zaman bizim mənəvi yardımçımız olub, heç nədən çəkinmədən mübarizəmizə həmrəylik göstərib, bütün beynəlxalq təşkilatlarda ölkəmizin haqlı mövqeyini müdafiə edib. Tarixi qələbəmizdə qardaş Türkiyənin də böyük mənəvi payı var. Bu gün Bakıda və Gəncədə, Ankarada və İstanbulda – hər yerdə Azərbaycan və Türkiyə bayraqları qoşa dalğalanır və bu möhtəşəm mənzərə ürəklərimizi bir döyündürür.

Beş il bundan əvvəl iyulun 15-də, sözün əsl mənasında, qardaş ölkənin daha bir qəhrəmanlıq dastanı yazılıb, burada demokratiya parlaq zəfər qazanıb. Təsadüfi deyil ki, 15 İyul Türkiyədə Demokratiya və Milli Birlik Günü kimi geniş qeyd olunur. Bununla əlaqədar çoxsaylı tədbirlər keçirilib. Hadisələrin beşinci ildönümü ilə bağlı Ankarada təşkil olunan mərasimlərdə ölkəmizi Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Cənab İlham Əliyevin Türkiyə Prezidentinə göndərdiyi məktubunda da qeyd olunduğu kimi, dostluq və qardaşlığın ən gözəl nümunəsi olan, sülhə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verən Azərbaycan–Türkiyə əlaqələri bu gün özünün ən yüksək zirvəsindədir: "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəriniz zamanı imzaladığımız Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərimizi keyfiyyətcə yeni müstəviyə qaldıraraq, əməkdaşlığımızın gələcək istiqamətlərini müəyyən edir. Əminəm ki, Azərbaycan–Türkiyə birliyi və qardaşlığının "Bir millət iki dövlət" şüarına uyğun olaraq daha da möhkəmləndirilməsi və inkişafı naminə qarşıya qoyduğumuz hədəflərə çatmaq üçün birgə səylərimizi davam etdirəcəyik".

Bəli, dost dar gündə tanınar, – deyiblər. Azərbaycan da, Türkiyə də dar gündə birlikdə olmaqla ölkələrin və xalqların nadir dostluğu nümunəsi göstərmələri ilə öyünürlər. Ölməz xalq şairimiz Səməd Vurğunun məşhur şeirində belə bir misra var: "Ayrılarmı könül candan?" Cavab birmənalıdır: əlbəttə, ayrılmaz!

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***